*Ağakişiyeva Nuranə Ağamoğlan qızı, dissertant,*
*AMEA-nın İqtisadiyyat İnstitutu,*
*Bakı Biznes Universiteti, müəllim,*
*Email: na_271183b@bk.ru*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ DEMOQRAFİK SİYASƏT

44 gün davam edən İkinci Qarabağ müharibəsinin sonunda şanlı ordumuzun əldə etdiyi qələbə, illər ərzində erməni qəsbkarları tərəfindən zəbt olunan torpaqlarımızı bizə yenidən qazandırdı. 2020-ci ildən bu günə kimi işğaldan azad edilmiş torpaqlarda bir çox istiqamətdə yenidənqurma işləri aparılır. Kənd təsərrüfatı, yol-nəqliyyat, infra-struktur və iqtisadi məsələlərdə bir çox addımlar atılmışdır. İlkin mərhələdə qarşıya

qoyulan məqsədlərdən biri olan təhlükəsizlik məsələsi daim nəzarətdə tutulur. İşğaldan azad edilmiş ərazilərdə erməni təcavüzkarları tərəfindən basdırılmış minalardan təmizlənmə işləri aparılır. Bundan əlavə paralel olaraq Qarabağın unikal ekosisteminin bərpası uğrunda iri addımlar atılır, lazımi tədbirlər görülür. Amma aparılan bu araşdırmanın başlıca məqsədi sadalanan istiqamətlərlə yanaşı, başlıca və təxirəsalınmaz tədbirlərə ehtiyac duyulan bu ərazilərə əhalinin köçürülməsi və dövlətin bununla bağlı apardığı demoqrafik siyasətidir.

Bir çox alimlər tərəfindən əhalinin işğaldan azad edilmiş ərazilərə köçürülməsi ilə bağlı fikir və planlar irəli sürülmüşdür. Dövlət bununla bağlı əhalinin repatriasiya işlərini sürətləndirməyə çalışır və lazımi tədbirlərin həyata keçirilməsini təmin edir. Ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də göstərilən beş istiqamətdən biri də işğaldan azad olunmuş ərazilərə böyük qayıdışdır. Böyük qayıdışın əsasını isə dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya təşkil edir.[7]

Aparılan tədqiqatlar bunu göstərir ki, Qarabağda dövlətin demoqrafik siyasətinin əsasını iqtisadi problemlərin həlli tutur. 2022-ci ilin fevral ayının 4-də Azərbaycan Prezidenti İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin VIII iclasında çıxışı zamanı qeyd edib ki, "...Mən də ümid edirəm ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı işğaldan azad edilmiş ərazilərimizin qazlaşdırılması üçün tezliklə bizə əlavə qaz həcmləri lazım olacaq. Bu, tamamilə məhv edilmiş geniş ərazidir. Bütün infrastruktur dağıdılıb. Bu ərazinin sahəsi 10 min kvadrat kilometrdən çoxdur. Qarşılaşdığımız çətinliyi təsəvvür edə bilərsiniz. Bu ildən biz artıq keçmiş qaçqınları öz torpaqlarına qaytarmağı planlaşdırırıq. Ona görə də öz istehlakı üçün əlavə qaza ehtiyac yaranacaq. Burada diqqətimizi cəmlədiyimiz bərpa olunan enerji mənbələri ilə bağlı çox vacib bir məqama gəlirik. ..."[5]

Dövlət başçımızın Qarabağda aparılan demoqrafik siyasətlə əlaqədar hər çıxışı və atdığı addımlar bu məsələnin nə dərəcədə aktual olduğunu bir daha sübut edir. 30 il ərzində erməni vandalları yaşayış və ictimai binaları, bütün infrastrukturu, maddi və mədəni abidələri dağıtmış, yeraltı sərvətlərimizi vəhşicəsinə talan etmişlər. Bütün bunları nəzərə alaraq bilirik ki, İAEƏ–də normal həyatın qaytarılması və iqtisadi inkişafın bərpa olunması böyük maliyyə vəsaiti tələb edir. Bununla bağlı dövlət büdcəsindən vəsait ayrılmışdır, aidiyyəti üzrə beynəlxalq maliyyə müəssisələrinin, yerli və xarici investorların bərpa işlərinə cəlb olunması vacibdir. Hal-hazırda bərpa işlərinin həyata keçirilməsində ağıllı texnologiyalardan da istifadə edilir, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları həyata keçirilir. Buna nümunə kimi Zəngilan rayonunun Üçüncü Ağalı kəndini göstərə bilərik. Mütəxəssislər "ağıllı kənd"in orada məskunlaşacaq əhali üçün kifayət qədər üstünlüklərə malik olduğunu vurğulayır və bildirirlər ki, bu layihəni həyata keçirməklə həm aqrar sektoru inkişaf etdirilir, həm də idarəetmə sistemində elektronlaşmanın və şəffaflığın təmin olunmasına, qərarların çevik qəbul edilməsinə nail olunur. Bundan başqa, "ağıllı kənd" layihəsi, eyni zamanda, insanlara kənddə pul qazanmaq imkanı da yaradır. Hər bir ölkə vətəndaşının olduğu kimi, kənd sakinlərinin də dövlət xidmətlərinə çıxışı olmalıdır və bütün bu məsələləri həll etmək üçün dünyada innovativ kənd layihələrindən istifadə edilir. "Ağıllı kənd" həmçinin demoqrafik proseslərin əsasını təşkil edən əmək ehtiyatlarının məşğulluğunun təmin olunması modeli

kimi də çox vacib mexanizmlərdən sayılır. Həm də məskunlaşma prosesinin intensiv aparılmasına, sistemli şəkildə reallaşmasına imkan verir. [2]

İnfrastrukturun bərpası ilə bağlı hazırda Kəlbəcər, Qubadlı, Füzuli, Cəbrayıl, Ağdam, Zəngilanda ümumilikdə, 9 yarımstansiya və onları əlaqələndirən 110 kilovoltluq ötürmə xətlərinin tikintisi gedir. Şuşa şəhərində artıq "Şuşa" yarımstansiyası fəaliyyət göstərir. Bu ərazilərdə alternativ enerji mənbələrindən, hidroenerji növündən də geniş istifadə edilməsi nəzərdə tutulur. Belə ki, Fizuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında Günəş elektrik stansiyalarının (GES) tikintisi üçün perspektiv ərazi müəyyən edilmişdir. [6]

İşğaldan azad edilmiş ərazilərdə demoqrafik tənzimlənmə ilə əlaqədar iqtisadi inkişafın daha da sürətlə təmin olunmasına çalışılır. Bu istiqamətdə aparılan işlərə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqini; bu ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsini; müasir bilik və bacarıqlara malik mütəxəssislərin cəlb edilməsi, habelə əmək miqrasiyası kvotasının müəyyən edilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsini misal göstərə bilərik [2]. Aparılan tədqiqat göstərir ki, müharibədən sonrakı Qarabağın inkişafı istiqamətində böyük miqyaslı layihələr aparılır. Bərpa-quruculuq və yenidənqurma işlərinə bütün tərəfdaşlar və marağı olan ölkələr cəlb edilir. Bir sözlə, Qarabağda infrastrukturun bərpa edilməsi aparılan bərpa-quruculuq işləri region üzrə demoqrafik proseslərin tənzimlənməsində əvəzedilmız rol oynayır.

### İstifadə olunmuş ədəbiyyat:

1. Regionların sosial-iqtisadi inkişafı (2019-2023). Statistik məcmuə. Yanvar, 2020, 712 s.

2. https://e-qanun.az/framework/48628 İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında. Azərbaycan Respublikasi Prezidentinin sərəncami Bakı şəhəri, 10 dekabr 2021-ci il. № 3037.

3. https://www.youtube.com/watch?v=XaQPZpoCoUo Füzulidə olan 95 məcburi köçkün ailəsi evlə təmin edilib. 15.03.2021.

4. http://www.respublica-news.az/images/pdf/2021.o1.o8.pdf Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib. 08.02.2021, № 03(6899).

5. https://www.trend.az/azerbaijan/politics/355o882.html o4.o2.2022-ci il tarixdə Azərbaycan Prezidenti İlham Əliyev xüsusilə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII iclasında çıxışı.

6. https://xalqqazeti.com/az/news/78552 Azad olunmuş ərazilərin bərpası Azərbaycanı daha da gücləndirəcək.

7. https://president.az/az/articles/view/5o474 Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.